

■ Şərəf Yılmaz

**Şərəf Yılmaz 1 aprel 1967-ci ildə Antalyada doğulub. Səlcuq Universiteti Təhsil Fakültəsinin Türk Dili və Ədəbiyyatı bölməsini bitirib. Fəlsəfə üzrə aspiranturanı qurtarıb. Gənc yazarlar və şairlər üçün Yaradıcılıq Məktəbi açıb, Yazarlar Akademiyası Dərnəyini qurub. Bir yayınevini idarə edir. "Temrin" ədəbiyyat dərgisini buraxır. Şeirlər, hekayələr yazır. Çap üzü görmüş bəzi kitabları: "Hər şey sənin üçün", "Konsulun köpəyi", "Eşqdən soruş, o bilir", "Qiyamət keçidi" və s.**

# Kolleksioner

*hekayə*

Qarşısındakı markalar diqqətini çəkdi. Zərfin içindən çıxartdığı markaların bəzilərini bir tərəfə, bəzilərini də digər tərəfə qoyurdu:

- Deyəsən, həvəskarsınız?

- Demə daha! Filateliya servisi mənə işləyir.

Yanında oturdum, bir müddət göz qoydum, mənə sarı döndü:

- Deyəsən, siz də həvəskarsınız?

- Sizin qədər yox...

Markaları düzməyə davam etdi. Ayırdıqlarını arabir gözdən keçirir, sonra əlini təkrar zərfin içinə salırdı. Bəzən markaların üzərinə daha artıq əyilir, onların üstündəki yazıları və tarixləri oxumağa çalışırdı.

- Burda nə qədər marka var?

- Yüzə qədərdi

- Neçə ildi marka kolleksiyası toplayırsınız?

- Beş ildən çoxdu.

- Başqa markanız varmı?

- Xeyr, hamısı budu.

- Bunların arasında xarici marka varmı?

- Xeyr, hamısı yerlidi... Başqa ölkələrin markalarını tapmaq elə bilirsən asandı?

Qarşısındakı markaları bir-bir gözdən keçirib təzədən zərfin içinə yığmağa başladı. Bu dəfə bayaqkı əməliyyatın əksini yerinə yetirirdi. Markalara, sadəcə, bekarçılıqdan baxdığını anlayırdım. Markalarını zərfə yığarkən təklifimi bildirdim:

- Görmək istəsəniz, markalarımı gətirib sizə göstərə bilərəm.

- Əlbəttə, yaxşı olar.

Həftə sonu görüşmək üçün ayrıldım. Markalarımı evdə bir-bir araşdırdıqdan sonra albomu çantama qoyub dükana yollandım. Məni o saat tanıdı:

- Markalarınımı gətirdin?

- Bəli.

Çantamdan marka albomumu çıxararkən oturduğu yerdə həyəcandan dura bilməyib ayağa qalxdı. Albomu masanın üstünə qoydum. Sakitləşdi. İçini dərindən çəkərək stuluna oturdu və albomun qapağını səliqə ilə açdı. Bir neçə səhifəyə göz gəzdirdikdən sonra duruxdu və dodağının altında öz-özünə mızıldandı:

- Hımm! Bunlar xarici markalardı! Bəzilərindən iki dənədi! Bu marka Birinci Dünya Müharibəsi illərindən qalmadı... Bax, bu marka Xirosimaya atılan atom bombası münasibətilə nəşr edilmişdir...

Bir xeyli bu cür mızıldandıqdan sonra nəsə bir qərara gəlmiş kimi soruşdu:

- Burada neçə dənə marka var?

- Üç yüzdən artıqdı...

- Belə de! Ciddi sözündü?

- Bəli!

- Bu qədər markanı neçə ilə yığa bilmisən?

- Üç ilə...

- Necə yəni?

- Adi qaydada, bildiyin kimi...

- Mümkün deyil! Bu qədər markanı üç ildə yığa bilməzsən.

- Yığmışam axı... İstər inan, istər inanma!

Dodağını heyrətlə büzdü və başını yana əyərək baxışlarını qarşıdakı divara dikdi:

- Yəqin marka kolleksiyasına başlamağına səbəb olan bir hadisə var...

- Bəli, var.

- Hansı hadisədi?

- Mənim bu qədər markanı toplamağıma bir poçt qutusu səbəb oldu.

- Poçt qutusu ilə marka kolleksiyasının nə əlaqəsi ola bilər?

- Niyə də olmasın? Poçt qutusuna marka gələ bilməzmi?

Biz danışarkən içəri girən bir müştəri dəri gödəkçəsinin rənglənib-rənglənmədiyini soruşdu.

- Hazırdı, - dedi.

Gözlüyünü çıxarıb masanın üstünə qoydu və önlüyünü sığallayaraq yavaşça ayağa qalxdı. Dəri gödəkçəni asılqandan götürüb müştəriyə verdi. Müştərisini yola salandan sonra, təmir edilməli bir neçə dəri çantanın, kəmərin və it xaltasının arasından divardakı yarı səyyar limofonu (səsötürücü - tərc.) götürüb stoluna qayıtdı.

- Dayan hələ bir çay sifariş verim, sonra davam edək.

Özündən razı halda oturdu. Əlində tutduğu lomofpnun düyməsini basmağı ilə çayçının səsi eşidildi. Bu səs, təcili yardım qrupunun simsiz arayanlarının xışıltıları qədər sərt və gurultulu idi. Sanki dünyanın o biri başında fəryad edən bir səsin, fəzada dəyişik dalğa tezliyindən keçərək sərrac (dəri məmulatlarının təmiri - tərc.) dükanında əks-sədasını eşidirdim. Bir çox xışıltı arasından xəttin o biri başındakı çayçının "buyurun, çay evi " səsini çətinliklə başa düşə bilirdim. Qarşı tərəflə əlaqə yaratmış sərrac (dəri məmulatlarının təmiri ilə məşğul olan - tərc.) ağzını limofona daha yaxın tutdu:

- Sərrac Samiyə iki çay

Xışıltılar arasından:

- Aydındı, - səsi əks-səda verdi.

Sifarişi uğurla yerinə yetirəndən sonra Sami usta lümofonu təzədən divardan asaraq stulunda oturdu:

- Hə Deyirsən, bu iş necə başladı?

- Poçt qutusu ilə...

- Onu bildim, axı necə oldu?

- Üç il əvvəl kirayə qaldığım evləri dəyişdikcə ünvanım da tez-tez dəyişirdi. Uzun-uzun məhəllə, küçə və döngə adlarını yazmaqdansa bir poçt qutusu kirayələməyi daha münasib bildim. Düşündüm ki, məktub yazana da, cavab verənə də asan olar.

Sözümü ağzımda qoydu:

- İndiki zamanda məktub yazan varmı?

- Haqlısınız! Mən onu məktubdan artıq fakura, cürbəcür sənədlər üçün bir vasitə kimi düşünmüşdüm.

- Hımm! Hər nəysə...

Poçt qutusunu kirayələdikdən sonra təzə bir qıfıl aldım. On doqquz nömrəli poçt qutusunu qıfılladım. Bir neçə gündən sonra poçta baş çəkdim. Əslində gözlədiyim məktub, sənəd-filan yoxdu. Qutunu açanda bir məktub gördüm. Zərfin üstündəki adı tanımırdım. Deməli, mənə aid deyildi. Zərfi götürüb arxa otaqdakı məmurun yanına getdim.

- Bu məktub mənim poçt qutuma gəlib, - dedim. - Məndən əvvəl kirayə edən adama aid olduğunu sanıram. Sizə verim, bəlkə gəlib soruşdu.

- Bizə verməyin, - dedi. - Burada ona aid kirəlik poçt qutusu yoxsa, gəlməz.

- Yaxşı, mən bu məktubu neyniyim?

- Nə edirsiniz, edin. Zibil qutusuna atın! Mənə versəniz, mən də zibil qutusuna atacağam.

- Yaxşı, - deyib çıxdım.

"Məktubu sonra ataram", fikirləşib çantama qoydum. Sonra məktubu unutdum. Bir zaman çantamı töküşdürəndə məktubu gördüm. Maraqla açdım. Baxdım ki, zərf marka ilə doludu

- Gör ha!

- Bəli!

- Çox idimi?

- O zaman maraqlanıb saymışdım. Yalan olmasın, iki yüzə yaxın idi.

Sami usta heyrətini saxlaya bilmədi:

- Necə?.. O qədər marka ha! Vay dədə!

- Qarşınızdakı albomda gördüyünüz o tarixi köhnə markalar var ha?..

- Bəli!

- Bax, onların çoxu poçt qutusundakı zərfdən çıxıb.

- Şanslı adamsan, vəssalam...

Sami usta həm məni dinləyir, həm də albomdakı markalara baxırdı. Başı qarışmışdı. Bəzi markalar nəzərini cəlb edir, dayanıb o markalar haqqında izahat verirdi. Dövlət başçılarının adına buraxılmış markalara baxır, onların haqqında bir-bir məlumat verir, sonra da onların ən xarakterik özəlliklərini anladırdı.

Markaları heyrətlə xarakterizə edən Sami usta arada:

- Tutuquşular haqqında bilirsən də? - dedi.

- Çox məlumatım olduğunu deyə bilmərəm. Sadəcə, eşitdiyim qədərdi.

- Jako tutuquşusu haqqında necə?

- Xeyr! Quşlar haqqında o qədər ətraflı məlumatım yoxdu.

Qarşısındakı albomdan bir marka göstərdi:

- Budu, bax, bu Jako tutuquşusudu... Türkiyəyə xaricdən gətirilir. Gətirilənlərin ən kiçikləri doqquz aylıqdı...

- Daha kiçiklərini niyə gətirmirlər?

- Buranın iqliminə öyrəşə bilmirlər, ona görə.

- ?

- Hə! Tutuquşudu deyib, keçmə. Bunların insanlar qədər yaşayanları var. Xüsusən, bu haqqında danışdığım növləri var ha? Bunlar insanlardan daha artıq yaşayır.

- Belə dee!

- Təbii ki... Çörçilin tutuquşusu hələ yaşayır, xəbərin yoxdumu?

Hər baxdığı marka haqqında ilkinc bilgilər verən Sami usta dedi:

- Demək bu markaların hamısı poçt qutusundan çıxdı?

- Hamısı yox, - dedim.

- Bir qismini də toplamısan, təbii ki...

- Əslində qalanlarını da topladığımı söyləyə bilmərəm. Qalanlarının da böyük bir qismi sürpriz kimi qarşıma çıxıb.

Mən belə deyəndə Sami ustanın gözləri böyüdü. Marağı daha da artdı:

- O necə oldu?

- Poçt qutusundan çıxdı.

- Əşi, onu bildim! Sən qalanlarının hardan çıxdığını anlat!

- Onlar da poçt qutusundan çıxdı.

- Allah, Allah! İşə bax bir! Sən mənimlə zarafat eləmirsən, deyilmi?

- Xeyr! Son dərəcə ciddi deyirəm.

- Yəni başqa bir poçt qutusu kirayələdin, markalar dalınca ora da gəldi, eləmi?

- Xeyr, elə deyil... Mən poçt qutuma gələn bu markaları atmadım və marka kolleksiyası yığmağa başladım, ha? İki həftə sonra poçt qutuma baxdım, yenə bir məktub gördüm. Zərfi o saat tanıdım. Əvvəlki marka zərfinin eynisi idi. Zərfi açıb baxdım. İçində yenə çoxlu marka vardı.

Sami usta stulundan cəld qalxdı:

- Allah, Allah! İşə bax sən...

- Mən də çaşdım, doğrusu, Sami usta... Götürüb onları da qoydum albomuma... Oldumu iki yüzdən artıq marka! Bu da sənə gözəl bir marka kolleksiyası...

- Başqalarının beş ildə toplaya bilmədiklərini iki həftədə yığdın demək...

- Belə çıxır.

- Yaxşı, səndən əvvəlki adam filateliya servisinə üzv imiş? - Mənim cavabımı gözləmədən əlavə etdi. - Amma elə olsaydı belə bir neçə dənə yeni çıxan marka gələrdi. Filateliya xidməti o qədər marka göndərə bilməz ki...

Marağını istiqamətləndirmək üçün sözünü kəsdim:

- Səbəbi o deyil... Zərfin içindən çıxan ingiliscə qeyddən anladığıma görə, bu adam beynəlxalq marka kolliksionerləri ilə dəyiş-döyüş eləyirmiş. Mənə bir cəmiyyət kimi gəldi. Sanıram öz aralarında bir-birinə tez-tez fərqli markalar göndərirlər.

- Vay dədə! Səndən əvvəlki kirayəçi professional marka kollesioneriymiş.

- Görünür elə imiş...

- Deməli, indi bu markalar hazırca ayağına gəldi, eləmi?

- Elə sayılır.

- Yəni bir-bir toplamadın?

- Yox, canım, ona səbrmi çatar, sən də...

Sami usta ağzı açıq, gözləri böyümüş halda bir xeyli üzümə baxdıqdan sonra gülümsədu:

- Sənin dediklərindən bir şey anlamıram. Özümü axmaq kimi hiss etməyə başladım. Əşi, marka bir-bir toplanmazmı?

Sami ustanın dediyi doğruydu. Marka kolleksiyaçıları filateliya servisinə gedərək yalnız ən son çıxan bir neçə xatirə markası tapa bilərdilər. Artıq mümkün deyildi. Əslində mənim qarşılaşdığım anormal bir şeydi. Bundan dolayı Sami ustaya qarşı uyğun şəkildə davranmaq xoşuma gəlirdi.

- Haqlısınız, - dedim. - Marka bir-bir toplanır. Amma mən bu yolu sərfəli saymıram. O cür çətinliyə dözə bilmərəm. Marka özü mənim ayağıma gəlməlidi.

- Demək, sən markanın ayağına getməzsən?

- Xeyr! Elə pərakəndə işlərə baş qoşmaram. Markalar məni onsuz da belə tapır. Həm də bir-bir deyil, topdan çıxır qarşıma.

- Markaların qarşına özlərinin çıxıb-çıxmadığını poçt qutusu olmasa, bilərsən.

- Poçt qutusuna dəxli yoxdu. Poçt qutusunu buraxdım. Başqa yerdə yenə qarşıma çıxdı.

- Zarafat eləmə, Allahı sevərsən!

- Zarafat eləmirəm!

- Yaxşı, harda qarşılaşdın?

- Xaricdə...

- Necə?

- Xaricə istirahətə getmişdim. Otelin dəhlizində qəzet oxuyurdum. Bir azdan otel işçisi gəlib məni qalacağım otağa apardı. Qapıdan çıxarkən təkrar içəri girdi. Stolun daxılını çəkib ordan bir dəftər çıxartdı:

- Əgər marka kolleksiyası toplayırsınızsa bunu götürə bilərsiniz, - dedi.

Otel işçəsinin dediklərindən bir şey anlamadım. Baxdım, bir albom marka idi. Başımda cürbəcür suallar dolaşırdı. Kimindi bu albom? Nəyə görə mənə verilirdi? Eyni suallarla qulluqçuya müraciət edəndə məsələni öyrəndim. Albomu bir neçə həftə əvvəl oteldə dincələn bir müştəri qoyub getmişdi. İşçilərə də markaları bir nəfərə hədiyyə etmələrini söyləmişdi. Ondan sonra otaqda qalanların heç biri markalara maraq göstərməmişdi. Otel işçisinə:

- Alboma baxıb sizə fikrimi bildirəcəyəm, - dedim.

Otaqdan çıxdı. Mən albomu gözdən keçirməyə başladım. Markaların böyük bir qismi tarixi idi. Belə bir marka kolleksiyasını kim, nə üçün qoyub gedib? Bu sualın cavabını öyrənməyə imkan yoxdu. Oteldən ayrılarkən marka albomunu almaq istədiyimi otel işçisinə bildirdim. Bu da xarici ölkədə mənim ayağıma gələn bir marka toplusu idi.

Sami usta çaşmış halda nə deyəcəyini bilmirdi. Heyrətini ifadə edən bir neçə əl hərəkətindən sonra:

- Ola bilməz belə bir şey, - deyə bildi.

- Amma oldu, - dedim.

Gözlərimin içinə diqqətlə baxaraq zarafat edib-etmədiyimi anlamağa çalışırdı:

- Sən bunları zarafat kimi söyləmirsən, eləmi?

- Markalar qarşınızdadı. Bu qədər marka başqa cür toplana bilərmi?

- Haqlısan.

Sami usta markaları yaxşıca araşdırma fürsəti əldə etdi. Vaxt çatanda marka dəftərimi götürüb ayrıldım. Markalarımın bəyənilməsindən məmnundum. Zəngin bir marka kolleksiyaçısı sayılırdım.

Markalarıma yenilərini əlavə etmək üçün hərdənbir filateliya servisinə baş çəkir, təzə gələn xatirə markalarını araşdırırdım. Ordakı işçi ilə tanışdıq. Bir dəfə işçi:

- Telefon nömrənizi qoysanız, təzə gələn markalardan sizi xəbərdar edə bilərik.

Bu təklifi bəyəndim. Telefon nömrəmi verdim. Zaman-zaman məni axtarırdılar. Bir dəfə işçi:

- Siz marka həvəskarısınız. Əgər fərqli markalar almaq istəsəniz, alt mərtəbədəki işçinin marka kolleksiyası var, - dedi.

Alt mərtəbəyə yenib kolleksiyası olan adamı tapdım. Yuxarıdan göndərdiklərini söylədim. Baxmaq üçün marka dəftərini uzatdı. Ayaqüstü baxdım. Hamısı yerli və təzə markalardı. Aydındı ki, filateli servisinə gələn hər markadan özünə də bir ədəd saxlamışdı.

- Bu markaları niyə satırsınız?

- Kooperativ evimin ara (yekun - tərc.) kreditini ödəyəcəyəm. Yoxsa markalarımı satmaram.

Yüksək qiymət tələb edəcəyi aydındı. Adam markalarını evə çörək almaq üçün satmırdı. Ev almışdı, kreditini ödəyəcəkdi. Həm də ara kreditini. Ara krediti ayağını yerdən götürəcək bir maşının pulu deməkdi.

- Bu markalara nə qədər istəyirsiniz?

- Ara kreditimi ödəyə bilmək üçün alacağım maaşımı beş ay xərcləməməliyəm.

- Deməli, beş ayın maaşını istəyirsən eləmi?

- Bəli...

- Qərarımı sizə bildirərəm, - deyib ayrıldım.

Adamın istədiyi qiyməti artıq hesab etdiyim üçün təkrar gedib danışmağa ehtiyac duymadım. O markalar ara kreditini ödəyərdisə, mənim markalarımla ev satın almaq olardı.

Bir gün işdən qayıdanda poçt qutusuna baxdım. Fakturaların arasında bir zərf vardı. Zərfin üstündə "filateli servisi" yazılmışdı.

**Türk dilindən çevirən:**
**Eyvaz Zeynalov**